"Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanının 10.4-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti

**QƏRARA ALIR:**

1. "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 24 noyabr tarixli 191 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 11, maddə 1072, № 12, maddə 1247; 2012, № 1, maddə 40, № 3, maddə 256; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 10 oktyabr tarixli 235 nömrəli qərarı) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü hissə aşağıdakı redaksiyada verilsin:

"3. Elektron xidmətlər reyestrinin operatoru funksiyalarını Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi həyata keçirir." ;

1.2. 4.2-ci bənd ləğv edilsin;

1.3. həmin qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1.3.1. 2.1.7-ci yarımbənddən "elektron xidmətlər reyestri," sözləri çıxarılsın;

1.3.2. 6.2.3-cü yarımbənddə "xidmətləri qeydə alaraq reyestrini aparmaq və "Elektron hökumət" portalına" sözləri "xidmətlərin qeydə alınaraq Reyestrə" sözləri ilə əvəz edilsin.

***Azərbaycan Respublikasının***

***Baş naziri Artur Rasi-zadə***

***Bakı şəhəri, 16 noyabr 2012-ci il***

***№ 268***